Elm:xüsusi buraxılış .- 2025.-18 noyabr (№36-37).- S.24.

# Asəf Hacıyev: "Elmə ayrılan vəsait iqtisadiyyatın dayanıqlı inkişafını və innovasiya potensialını gücləndirir"

**AMEA-nın yubileyi münasibətilə hər kəsi təbrik edirəm. Akademiya 80 illik fəaliyyət dövründə zəngin inkişaf yolu keçib, ölkəmizin elmi potensialının formalaşmasında, milli elmi məktəblərin yaradılmasında və nüfuzlu alimlərin yetişməsində mühüm rol oynayıb.**



Bu fikirləri Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA) baş katibi, akademik Asəf Hacıyev bildirib.

AMEA-ya rəhbərlik etmiş dahi şəxsiyyətlər və onların elmimizin inkişafındakı xidmətlərindən bəhs edən akademik Asəf Hacıyev AMEA-nın ilk prezidenti, görkəmli cərrah Mirəsədulla Mirqasımovun Almaniyada qazandığı təcrübə sayəsində Azərbaycanda tibbi cərrahiyyə məktəbinin əsasını qoyduğunu vurğulayıb.

O, həmçinin AMEA-nın inkişafında mühüm rolu olan akademik Yusif Məmmədəliyevin xidmətlərindən danışaraq, alimin iki dəfə AMEA prezidenti seçildiyini və onun kimya elminə verdiyi töhfələr sayəsində Azərbaycan neft-kimya məktəbinin dünya miqyasında tanındığını qeyd edib.

Asəf Hacıyev akademik Musa Əliyevin rəhbərliyi altında yeni elmi tədqiqat institutlarının, bölmələrin yaradıldığını, böyük elmi layihələrin həyata keçirilməsi istiqamətində işlərin görüldüyünü söyləyib, alimin Azərbaycanın elmi inkişafında oynadığı müstəsna rolu vurğulayıb. Həmçinin SSRİ məkanında funksional analiz üzrə ilk monoqrafiyanın müəllifi olan akademik Zahid Xəlilovun riyaziyyat sahəsindəki tədqiqatları ilə Akademiyanın beynəlxalq nüfuzunun artırılmasına mühüm töhfələr verdiyini qeyd edib.

O, 1970-1983-cü illərdə AMEA-nın prezidenti olmuş, Azərbaycanda yarımkeçiricilər fizikası məktəbinin banisi, SSRİ və Azərbaycan elminin görkəmli fiziki, akademik Həsən Abdullayevin elmi fəaliyyətindən bəhs edib. Bildirib ki, akademik Həsən Abdullayevin tədqiqatları, xüsusən yarımkeçiricilər sahəsindəki yeniliklər, elmi nəzəriyyəni təcrübə ilə birləşdirərək mühüm texnoloji inkişafa təkan verib.

"Elmə ayrılan vəsait yalnız bilik istehsalını deyil, həm də iqtisadiyyatın dayanıqlı inkişafını və innovasiya potensialını gücləndirir", - deyən akademik Asəf Hacıyev əlavə edib ki, bu baxımdan Azərbaycanda da elmi tədqiqatlara ayrılan maliyyə vəsaitlərinin mərhələli şəkildə artırılması ölkənin elmi və texnoloji müstəqilliyinin təmininə xidmət edəcəkdir.

Asəf Hacıyev qeyd edib ki, biliyin kapitala çevrilməsi, yeni elmi nəticələrin innovativ məhsul və texnologiyalara transformasiyası məsələsinə xüsusi diqqət yetirilməlidir.